

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 137 (23.779)

*31 iyul 2021-ci il, şənbə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


*Dövlət proqramı icra olunur*

## Ərzaq təhlükəsizliyinin gücləndirilməsində yerli istehsalın payı artıb

***Tarixin bütün dövrlərində hər bir dövlətin qarşısında duran və bu gün də öz aktuallığını qoruyub saxlayan ən vacib vəzifələrdən biri əhalinin ərzaq məhsulları ilə etibarlı təminatıdır. Məhz buna görə də ölkəmizdə, eləcə də muxtar respublikamızda ərzaq təhlükəsizliyinin gücləndirilməsi məsələsi daim diqqət mərkəzində saxlanılır, bu istiqamətdə mühüm tədbirlər həyata keçirilir.***

Bu məqsədyönlü siyasətin davamı olaraq Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2008-ci il 17 sentyabr tarixli Sərəncamı ilə "2008-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı" təsdiq edildi. Dövlət proqramının əsas strateji hədəfi kimi ərzaq təhlükəsizliyinin dayanıqlılığının təmin edilməsi üçün institusional potensialın gücləndirilməsi müəyyən olunaraq bu hədəfə nail olmaq üçün bir sıra məqsədyönlü tədbirlər həyata keçirildi.

Həyata keçirilən tədbirlərin davamı olaraq Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafı üzrə qəbul edilən üç Dövlət proqramı bu sahədə böyük uğurların qazanılmasına şərait yaradıb. Əminliklə demək olar ki, dördüncü Dövlət proqramının icrası da ərzaq təminatı sahəsində ciddi nailiyyətlərə səbəb olacaqdır. Bundan əlavə, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müvafiq sərəncamları ilə təsdiqlənmiş "2021-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalı, emalı və ixracının stimullaşdırılmasına dair Dövlət proqramı" və "2021-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı" da uğurla icra olunur. Bu proqramlar muxtar respublikanın ərzaq təhlükəsizliyinin təmin edilməsində müstəsna əhəmiyyətə malikdir.

Muxtar respublikada həyata keçirilən səmərəli və dəqiq hədəflərə hesablanmış sosial-iqtisadi siyasətin real nəticələridir ki, 2015-ci illə müqayisədə 2020-ci ildə ümumi daxili məhsul istehsalı real ifadədə 17,8 faiz, sənaye məhsulu istehsalı 13,5 faiz, əsas kapitala yönəldilmiş vəsaitlər 9,4 faiz, kənd təsərrüfatı məhsulları istehsalı 33,4 faiz, yükdaşımalar 5,4 faiz, informasiya və rabitə xidmətləri 18,3 faiz, pərakəndə ticarət dövriyyəsi 36,1 faiz artıb.

Makroiqtisadi sabitliyin qorunması, innovativ əsaslı iqtisadiyyatın inkişafının təmin edilməsi, yüksək əlavə dəyər yaradan və ixraca yönələn məhsul istehsalının genişləndirilməsi muxtar respublikada həyata keçirilən sosial-iqtisadi siyasətin təməl prinsiplərini təşkil edir.

Əhalinin ərzaq məhsulları ilə etibarlı təminatında sənaye müəssisələrinin mühüm rolu var. Bu gün muxtar respublika sənayesi həm texnoloji, həm də innovativ baxımdan inkişaf edir. Bununla yanaşı, ölkə Prezidentinin 2019-cu il 13 sentyabr tarixli Fərmanına əsasən Şərur rayonunda Şərur Sənaye Məhəlləsinin yaradılması sənayenin inkişafına yeni imkanlar açıb. Belə ki, sənaye məhəlləsi istehsal prosesinin təşkilində infrastruktur xərclərinin azaldılması, kooperasiya əlaqələrinin gücləndirilməsi, kiçik və orta sahibkarlığın inkişafı üçün əlverişli iqtisadi modeldir.

Sənaye məhsulu istehsalının ildən-ilə artması muxtar respublikanın iqtisadi təhlükəsizliyinin əsas şərtlərindəndir. Sənaye məhsulu həcminin artması mövcud istehsal müəssisələrinin öz fəaliyyətini bərpa etməsi ilə yanaşı, həm də yeni istehsal müəssisələrinin istifadəyə verilməsi nəticəsində mümkün olub. Sənaye sahəsində həyata keçirilən irimiqyaslı islahatların uğurlu yekunudur ki, 1990-cı ilin əvvəlində muxtar respublikada 56 sənaye müəssisəsi mövcud idisə, ötən dövr ərzində bu müəssisələrin sayı 400-ü ötüb. 2021-ci ilin ilk beş ayında dövlət maliyyə dəstəyi və özəl investisiya hesabına müasir texnoloji avadanlıqla təmin olunan 45 istehsal və xidmət sahəsi fəaliyyətə başlayıb. Yeni emal müəssisələrinin fəaliyyətə başlaması sənayenin inkişafına da əhəmiyyətli təsir göstərib. Belə ki, 2021-ci ilin ötən dövründə sənaye məhsulunun həcmi artaraq 459 milyon 458 min 500 manat olub, sənayedə özəl sektorun payı isə 92,5 faiz təşkil edib.

Cari ilin ötən dövrü ərzində dövlətin güzəştli kredit dəstəyi və özəl investisiya hesabına 38 sənaye və kənd təsərrüfatı yönümlü istehsal



müəssisəsinin qurulması və genişləndirilməsi davam etdirilir.

Sahibkarlığa göstərilən diqqət və qayğının nəticəsidir ki, bu gün muxtar respublikada 127 növdə, 608 çeşiddə ərzaq, 257 növdə, 922 çeşiddə qeyri-ərzaq məhsullarının istehsalı üçün bütün imkanlar yaradılıb və 108-i ərzaq və 242-si qeyri-ərzaq olmaqla, 350 növdə məhsula olan tələbatın tamamilə yerli istehsal hesabına ödənilməsi təmin edilib.

Muxtar respublikada sənayenin inkişafında qarşıya qoyulan əsas vəzifələrdən biri də yerli xammala əsaslanan müəssisələrin fəaliyyətinin dəstəklənməsidir. Çünki ərzaq təhlükəsizliyinin etibarlı təminatında məhz yerli xammalla çalışan qida sənayesi müəssisələrinin rolu böyükdür. Bu istiqamətdə cari ilin ötən dövründə Duzdağda ehtiyatı 15 milyon ton olan yeni şaxtanın istismara verilməsi əhalinin duz məhsuluna olan tələbatının dolğun şəkildə ödənilməsi ilə yanaşı, "Naxçıvan Duz İstehsalı" Məhdud Məsuliyyətli Cəmiyyətinin fəaliyyətinin genişlənməsinə, istehsal həcminin artmasına, ixrac potensialının yüksəlməsinə və duz məhsulunun dünya bazarlarına çıxarılmasına geniş şərait yaradır.

Son illərdə muxtar respublikada sənaye sahəsində reallaşdırılan islahatların başlıca məqsədi mövcud sənaye müəssisələrinin fəaliyyətinin bərpası və yenidən qurulmasından, dünya standartlarına cavab verən sənaye məhsullarının istehsalından, sənayenin dayanıqlı və davamlı inkişafını təmin etməkdən ibarətdir. Bütün bunlar tarixən aqrar region kimi formalaşan Naxçıvan Muxtar Respublikasının aqrar-sənaye regionuna çevrilməsi üçün ciddi təkan verib.

Məlum olduğu kimi, aqrar sahənin inkişafı ərzaq təhlükəsizliyi üçün başlıca amildir. Bu mənada, Naxçıvan Muxtar Respublikası Ali





Məclisi Sədrinin sərəncamları ilə təsdiq edilən Dövlət proqramları muxtar respublikada aqrar sahənin inkişafına mühüm təkan verməklə, kənd təsərrüfatının ayrı-ayrı sahələri üzrə uğurlu nəticələrin qazanılmasını şərtləndirib. Qəbul edilən Dövlət proqramlarının icrası istiqamətində həyata keçirilən tədbirlər təsərrüfatların müxtəlif sahələr üzrə fəaliyyətini şaxələndirməklə yanaşı, məhsul bolluğuna zəmin yaradıb. Belə ki, muxtar respublikada geniş sahələrdə qapalı suvarma şəbəkələrinin tikintisi, yeni suvarılan sahələrin kənd təsərrüfatı dövriyyəsinə cəlb edilməsi, məhsul istehsalçılarının mineral gübrə ilə təmin olunması, müxtəlif təyinatlı kənd təsərrüfatı texnikasının güzəştli lizinq şərtləri ilə fermerlərə verilməsi kənd təsərrüfatı ilə məşğul olan sahibkarlara bu sahəni inkişaf etdirmək üçün güclü stimul verib.

Həmçinin muxtar respublikada meyvəçiliyin və tərəvəzçiliyin inkişafına dövlət dəstəyinin göstərilməsi, geniş soyuducu anbar və istixana şəbəkəsinin yaradılması, heyvandarlığın inkişafı üçün kompleks tədbirlərin görülməsi, yüksək gəlirli sahə olan arıçılığa xüsusi diqqət yetirilməsinin nəticəsidir ki, bu günədək təkcə güzəştli şərtlərlə verilən kreditlər hesabına 460 heyvandarlıq, 88 quşçuluq, 14 balıqçılıq, 159 arıçılıq, 74 bağçılıq, 14 üzümçülük təsərrüfatı yaradılıb.

Fermerlərin kənd təsərrüfatı məhsullarını uzun müddət saxlamaları və əhalinin ilin soyuq fəsillərində kənd təsərrüfatı məhsullarına olan tələbatını dolğun şəkildə ödəmək məqsədilə əksər rayonlarda iritutumlu soyuducu anbarlar, əhalinin tərəvəz məhsulları ilə fasiləsiz təminatı üçün istixanalar tikilib. Belə ki, 2021-ci ilin yanvar-may aylarında dövlət maliyyə dəstəyi və özəl investisiya hesabına 3 soyuducu anbarın və 2 istixana təsərrüfatının yaradılması başa çatdırılıb, 1 soyuducu anbarın, eləcə də 2 istixana təsərrüfatının genişləndirilməsi isə davam etdirilib.

Ümumilikdə, son illər ərzində muxtar respublikada ümumi tutumu 19 min 700 ton olan 46 soyuducu anbar, ümumi sahəsi 150 min 817 kvadratmetr olan 34 istixana kompleksi fəaliyyətə başlayıb.

Bu gün aqrar sektorda məhsul istehsalının həcmində xüsusi çəkiyə malik olan ailə təsərrüfatları muxtar respublikada ərzaq təhlükəsizliyinin təminatında əvəzsiz rola malikdir. "Naxçıvan Muxtar Respublikasında ailə təsərrüfatlarının inkişafı ilə bağlı tədbirlər haqqında" Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2017-ci il 22 noyabr tarixli və 2019-cu il 18 yanvar tarixli sərəncamlarının icrası və 2019-cu ilin "Ailə təsərrüfatları ili" elan olunması bu sahənin inkişafına böyük təkan verib. Ailə təsərrüfatlarının fəaliyyətinin dəstəklənməsi məqsədilə 2019-cu ildə 87 ailə təsərrüfatına 820 min manat, 2020-ci ildə 49 ailə təsərrüfatına 604 min manata yaxın, 2021-ci ilin ilk beş ayında 21 ailə təsərrüfatına 321 min 700 manat həcmində güzəştli kredit verilib, "Ailə təsərrüfatı məhsulları" yarmarkasının keçirilməsi təmin olunub.

Göstərilən dövlət dəstəyi kənd təsərrüfatı sahəsində mühüm nailiyyətlərin əldə edilməsinə imkan verib, yüksəkkeyfiyyətli toxum istehsalının təşkili, müasir əkin və suvarma üsullarının tətbiqi, heyvandarlığın, quşçuluğun və arıçılığın inkişafının stimullaşdırılması istehsal edilən məhsulun həcmini və keyfiyyətini artırıb, eləcə də əhalinin ərzaq məhsullarına olan tələbatının əhəmiyyətli hissəsinin yerli istehsal hesabına ödənilməsinə səbəb olub. Həyata keçirilən tədbirlərin nəticəsi olaraq 2021-ci ilin ilk beş ayında 59 milyon 320 min manatlıq kənd təsərrüfatı məhsulları istehsal olunub ki, bu da 2020-ci ilin müvafiq dövrü ilə müqayisədə 2,9 faiz çoxdur.

Rayon və kəndlərdə kənd təsərrüfatı təyinatlı istehsal və xidmət sahələrinin yaradılması yerli resurslardan səmərəli istifadəni və məşğulluq səviyyəsinin yüksəldilməsini də təmin edib.

Sahibkarlıq fəaliyyətinə göstərilən dövlət dəstəyi, əsasən, Naxçıvan Muxtar Respublikasının daxili imkanlarına və sosial-iqtisadi inkişafın prioritetlərinə görə diqqəti cəlb edir. Belə ki, muxtar respublika iqtisadiyyatına investisiya qoyuluşunu sürətləndirmək, ənənəvi sahələrin işini canlandırmaq üçün görülən işlər çox qısa zaman içində öz bəhrəsini göstərib. Artıq Naxçıvan Muxtar Respublikası özünün investisiya cazibədarlığı ilə ölkəmizin digər iqtisadi rayonları arasında birinci yeri tutur ki, bu da sahibkarlıq fəaliyyətinin stimullaşdırılmasına göstərilən hərtərəfli qayğı, bu sahəyə real kredit dəstəyi nəticəsində mümkün olub. 2021-ci ilin yanvar-may aylarında muxtar respublika iqtisadiyyatına bank və kredit təşkilatları tərəfindən 85 milyon 314 min 500 manat kredit yönəldilib. Bu kreditlərin tərkibində Sahibkarlığın İnkişafı Fondu tərəfindən sahibkarlara güzəştli şərtlərlə verilən kreditlərin xüsusi əhəmiyyəti var. 2021-ci ilin yanvar-may aylarında iqtisadiyyatın müxtəlif istiqamətləri üzrə, ümumilikdə, fond tərəfindən 1 milyon 116 min manatdan çox güzəştli kredit verilib. Cari ildə verilən kreditlərin 90 faizi aqrar sektorun, 10 faizi müxtəlif sənaye sahələrinin inkişafına yönəldilib. Ümumilikdə, 2000-ci ildən ötən dövr ərzində fond tərəfindən 1550 layihənin maliyyələşdirilməsinə 169 milyon 722 min manatdan çox güzəştli kreditlər ayrılıb.

Ərzaq təhlükəsizliyinin ən mühüm tərkib hissəsi ərzaq məhsullarının keyfiyyətinə nəzarətin təmin olunmasıdır. Bu sahədə dövlət nəzarətini təmin etmək və muxtar respublikada istehsal olunan məhsulların, eləcə də idxal olunan qida məhsullarının keyfiyyətinin müvafiq standartlara uyğunluğunun təhlili sistemini təkmilləşdirmək məqsədilə "İstehlak Mallarının Ekspertizası Mərkəzi" Məhdud Məsuliyyətli Cəmiyyətinin Latviya Respublikasının Latviya Milli Akkreditasiya Bürosu Dövlət Agentliyi (LATAK) tərəfindən beynəlxalq akkreditasiyadan keçmiş Mərkəzi Qida Sınaq Laboratoriyası yaradılıb. Qeyd edək ki, cari ilin ilk beş ayında laboratoriya tərəfindən 63 mal çeşidini əhatə edən 238 halda səyyar və 832 halda mal nümunəsi laboratoriya analizindən keçirilib, aparılmış laboratoriya təhlilləri, əsasən, 624 yerli istehsal məhsulunu və 208 idxal məhsulunu əhatə edib. Nəticədə, 832 halda məhsulun keyfiyyət göstəricilərinin qüvvədə olan normativ texniki sənədlərin tələblərinə cavab verdiyi müəyyən edilib.

*Bu gün qarşıya qoyulan vəzifələrin icrası istiqamətində həyata keçirilən tədbirlər muxtar respublikada sabit və adekvat ərzaq təklifinin formalaşdırılmasına, səmərəli istehsal və satış infrastrukturunun yaradılmasına, ərzaq məhsullarının keyfiyyətinə nəzarət sisteminin təkmilləşdirilməsinə və hər bir vətəndaşın ərzaq məhsulları ilə etibarlı təminatına zəmin yaradıb.*


**Mehparə MƏMMƏDOVA**

***Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin Elmi-Tədqiqat Tədris Mərkəzinin elmi işçisi***

# Ana dilimiz milli varlığımızı müəyyən edən başlıca amildir

*Ümummilli liderimiz Heydər Əliyevin 2001-ci il 9 avqust tarixli Fərmanı ilə hər il avqustun 1-i ölkəmizdə Azərbaycan Əlifbası və Azərbaycan Dili Günü kimi qeyd olunur.*

Hər hansı bir xalqın dilinin mükəmməl şəkildə formalaşması, onun ünsiyyət vasitəsinə çevrilməsi uzun tarixi prosesin nəticəsində mümkündür. Azərbaycan xalqı ana dilimizin saflığını qorumuş, bu dildə xalq yaradıcılığı nümunələri – dastanlar, nağıllar, bayatılar, rəvayətlər, əfsanələr, atalar sözləri, mahnılar yaranmış, min illərin dil çeşməsində durularaq və sınaqlardan keçərək günümüzədək gəlib çıxmışdır. Azərbaycan dili milli sərvətimiz, ən ali dəyərimiz, dövlətimizin əsas atributlarından biridir.




Dilimizin saflığı və yaşaması uğrunda mübarizə XIX əsrin əvvəllərindən XX əsrin ortalarına qədər davam etsə də, onun dövlət dili səviyyəsinə qaldırılması, qorunması və inkişafı ümummilli liderimiz Heydər Əliyevin adı ilə bağlıdır. Ulu öndər hakimiyyətdə olduğu bütün dövrlərdə Azərbaycan dilini milli varlığın əsası kimi həmişə diqqət mərkəzində saxlamış, 1978-ci ildə Azərbaycan dilinin Azərbaycan SSR Konstitusiyasında dövlət dili kimi xüsusi maddədə göstərilməsinə nail olmuşdu. Həmin dövrdə Azərbaycan dilinin qrammatik quruluşunun elmi şəkildə öyrənilməsinə başlanılmış, dilçi alimlərin fəaliyyəti üçün geniş imkanlar açılmış, elmi-tədqiqat materialları və kitablar nəşr olunmuşdur. Azərbaycan dilinə və ümumiyyətlə, Azərbaycan dilçilərinin əməyinə verilən qiymət və onlara göstərilən qayğı ölkəmizin keçmiş sovet məkanında, eyni zamanda beynəlxalq elm aləmində türkologiyanın mərkəzlərindən biri kimi tanınmasına gətirib çıxarmışdır. Təsadüfi deyil ki, ötən əsrdə SSRİ Elmlər Akademiyasının bu istiqamətdə yeganə "Türkologiya" jurnalı məhz Bakıda nəşr edilirdi.

***"Azərbaycan dilinin dövlət dili kimi yaşaması, möhkəmlənməsi və inkişaf etməsi bizim nailiyyətlərimizdən biridir. Bu təkcə dil məsələsi deyil, həm də Azərbaycançılıq məsələsidir"***, – deyən dahi rəhbər siyasi hakimiyyətə ikinci qayıdışından sonra da ana dilimizin qorunması və inkişafı istiqamətində mühüm qərarlar qəbul etmiş, Azərbaycan Respublikası Konstitusiyasının 21-ci maddəsində Azərbaycan dili dövlət dili kimi öz təsbitini tapmışdır. Ulu öndərin "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" 2001-ci il 18 iyun tarixli Fərmanı, eləcə də 2003-cü il 2 yanvar tarixli Fərmanı ilə qəbul olunmuş "Azərbaycan Respublikasında Dövlət dili haqqında" Azərbaycan Respublikasının Qanunu mühüm dövlət sənədləridir. Ulu öndərin "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" Fərmanı ilə ölkəmizdə kiril əlifbasından istifadəyə son qoyulmuş, latın qrafikasının tətbiqi ilə bağlı bir sıra işlər həyata keçirilmişdir. Bu tarixi sənədlər əsl milli təəssübkeşlik qətiyyəti olmaqla, həm də Azərbaycanda dilçilik elminin nəzəriyyə və praktikasının inkişafını, ana dilimizin ümumxalq dili kimi inkişafını təmin etmişdir.

Ümummilli liderin ideyalarını bu gün layiqincə davam etdirən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev doğma dilimizə, milli adət-ənənələrimizə, qədim mədəniyyətimizə böyük həssaslıqla yanaşır. Azərbaycan ədəbiyyatını, azərbaycanlı düşüncəsini əks etdirən sanballı əsərlərin latın qrafikasında yenidən nəşr edilməsi doğma dilimizə və əlifbamıza dərin ehtiramın ifadəsidir. ***"Bizi millət kimi qoruyub saxlayan məhz dilimiz, ədəbiyyatımız, tariximiz, ənənələrimizdir"***, – deyən ölkə başçısının 2004-cü il yanvarın 12-də imzaladığı "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" Sərəncamı həm də əlifba ilə bağlı problemləri tamamilə həll etdi. Dövlət başçısının sonrakı sərəncamları əsasında 150 cildlik "Dünya ədəbiyyatı kitabxanası", 100 cildlik "Dünya uşaq ədəbiyyatı kitabxanası", 100 cildlik "Azərbaycan ədəbiyyatı kitabxanası" seriyasından olan yeni nəşrlər respublika kitabxana şəbəkəsinin latın qrafikalı ədəbiyyat fondunu zənginləşdirdi. Eləcə də ölkə başçısı cənab İlham Əliyevin 2007-ci il 30 dekabr tarixdə imzaladığı "Dünya ədəbiyyatının görkəmli nümayəndələrinin Azərbaycan dilində nəşri nəzərdə tutulan əsərlərinin siyahısının təsdiq edilməsi haqqında" Sərəncamı ana dilinin həyatımızın bütün sahələrində tam və müfəssəl tətbiqini gerçəkləşdirmişdir.

Ölkə Prezidenti cənab İlham Əliyev milli xüsusiyyətlərimizin saxlanmasında ana dilimizin başlıca amillərdən olduğunu dəfələrlə diqqətə çəkərək demişdir: ***"Ana dilimizə hörmət və qayğı daim olmalıdır. Biz ana dilimizi xarici təsirdən qorumalıyıq. Ana dilimiz bizim toxunulmaz sərvətimizdir. Azərbaycan xalqının formalaşmasında, müstəqil Azərbaycanın formalaşmasında ana dilimiz – Azərbaycan dili müstəsna rol oynamışdır. Biz elə etməliyik ki, dilimizin saflığını daim qoruyaq".***

Naxçıvan Muxtar Respublikasında da dövlət dil siyasəti uğurla həyata keçirilir. Son illər muxtar respublikada nəşr olunmuş "Naxçıvan Ensiklopediyası", "Naxçıvan Abidələri Ensiklopediyası", 3 cilddə "Naxçıvan folkloru antologiyası", "Dədə Qorqud yurdu Naxçıvan atlası", "Azərbaycan dilinin Naxçıvan dialektoloji atlası", türk-islam ədəbiyyatının "Şahnamə"si sayılan "Qutadqu bilik" (XI əsr) poemasının, "Naxçıvanda "Kitabi-Dədə Qorqud" toponimləri", böyük islam mütəfəkkiri Nemətullah Naxçıvaninin 3 cildlik "Əl-Fəvatih-ül-İlahiyyə-vəl-Məfatih-ül-Qeybiyyə", 3 cildlik "Naxçıvan tarixi" kitabları, xeyli sayda digər nəşrlər tariximiz və mədəniyyətimizlə yanaşı, dilimizin də qorunub saxlanılması sahəsində əsaslı tədbirlərdəndir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Oxunması zəruri olan kitablar haqqında" 2017-ci il 28 avqust tarixli Sərəncamı gənclərdə mütailə mədəniyyətini formalaşdırmaqla yanaşı, onlarda ana dilinə sevgi və hörmət hisslərini də artırmışdır. Bu gün muxtar respublikada ticarət və iaşə obyektlərinə, coğrafi ünvanlara doğma dilimizdə adların verilməsi, reklam lövhələrinin dilimizin qayda-qanunlarına uyğun yazılması ana dilimizin qorunması sahəsində həyata keçirilən tədbirlərdəndir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Elmin İnkişafı Fondunun yaradılması dilimizlə bağlı tədbir və nəşrlərin həyata keçirilməsi baxımından böyük əhəmiyyətə malikdir. Həmçinin Naxçıvan Yazıçılar Birliyinin fəaliyyətinin gücləndirilməsi, onun nəzdində Tərcümə mərkəzinin fəaliyyətə başlaması da dilimizin, sözümüzün qorunub inkişaf etdirilməsində mühüm addımlardandır.

Azərbaycan dilinin inkişafına göstərilən dövlət qayğısının nəticəsidir ki, ötən dövrdə dilimizin işləkliyi və düzgün təbliği diqqət mərkəzində saxlanılmış, muxtar respublikanın televiziya və radiolarında Azərbaycan dilinin norma və qaydalarının qorunması məqsədilə bədii şuralar yaradılmışdır. Bu qurumlar televiziya və radio kanallarında, mətbuat orqanlarında və sosial şəbəkələrdə Azərbaycan ədəbi dilinin normalarının pozulması hallarının qarşısının alınmasında ictimaiyyətin də fəal iştirakının təmin edilməsi və operativ tədbirlərin görülməsində mühüm rol oynayır. Diyarımızda Azərbaycan dilinə əcnəbi söz və ifadələrin yersiz daxil edilməsi, aparıcıların fonetik normalara əməl etməsi, reklam mətnlərinin səlis və aydın olması daim nəzarətdədir.

Azərbaycan Respublikasının 2020-ci il 8 may tarixli "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Qanunu ilə Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə 533.1-ci maddə əlavə edilmişdir. Müvafiq maddəyə əsasən kütləvi informasiya vasitələrində və reklam daşıyıcılarında dövlət dili normalarının pozulmasına görə fiziki şəxslərə yüz manatdan iki yüz manatadək, vəzifəli şəxslərə üç yüz manatdan dörd yüz manatadək, hüquqi şəxslərə isə beş yüz manatdan min manatadək məbləğdə cərimə tətbiq edilməsi nəzərdə tutulmuşdur. Qanunun tətbiqi ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 23 iyun tarixli Fərmanı ilə "Rayon (şəhər) məhkəmələrinin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"na dəyişikliklər edilmişdir. Həmin dəyişikliyə əsasən muxtar respublikada dövlət dili normalarının pozulması teleradio yayımlarında baş verdikdə Naxçıvan Muxtar Respublikası Televiziya və Radio Şurasının sədrinə, şöbə və sektor müdirinə, digər kütləvi informasiya vasitələrində aşkar edildikdə Naxçıvan Mətbuat Şurasının sədrinə protokol tərtib etmək səlahiyyəti verilmiş, bu istiqamətdə xeyli iş görülmüşdür.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2014-cü il 23 avqust tarixli Fərmanı ilə Naxçıvan Muxtar Respublikasında elm, texnika, memarlıq, mədəniyyət və ədəbiyyat sahələrində ən yaxşı əsərləri qiymətləndirmək və yaradıcı ziyalıları müasir tələblərə cavab verən yüksəksəviyyəli əsərlər yaratmağa təşviq etmək məqsədilə Naxçıvan Muxtar Respublika mükafatları təsis edilmiş, mükafat komissiyası yaradılmış və komissiyanın əsasnaməsi təsdiq olunmuşdur. Ali Məclis Sədrinin 2015-ci il 14 mart tarixli Sərəncamına əsasən ədəbiyyat sahəsi üzrə "Poetik-praktik Azərbaycan dili" dərs vəsaitinə görə pedaqogika üzrə elmlər doktoru Elbəyi Maqsudov Naxçıvan Muxtar Respublika mükafatına layiq görülmüşdür. Kitab Azərbaycan dilinin öyrədilməsi, onun tədrisi haqqında pedaqoji poema, tədris tariximizdə iz qoyacaq bir əsərdir. Elbəyi Maqsudovun "Poetik-praktik Azərbaycan dili" adlı dərs vəsaiti dövlət dilinin tətbiqi sahəsində poetik dillə yazılmış ilk fundamental əsərdir. Əsər məktəblilər, abituriyentlər və müəllimlər üçün əvəzsiz mənbədir. Azərbaycan dili qrammatikasının tarixində ilk müəllifdir ki, poetik-praktik qrammatika yaratmışdır. Bu əsərdə dilin bütün bölmələri elmi, bədii və təcrübi şəkildə poetikləşdirilmişdir.

Naxçıvan Dövlət Universitetində Azərbaycan dili fənni ilə bağlı dərslərin tədrisinə və ixtisaslı kadr hazırlığına xüsusi diqqət yetirilir. Tarix-filologiya fakültəsində Azərbaycan dili və ədəbiyyat ixtisası üzrə bakalavr səviyyəsinin bütün kurslarında fənnin müxtəlif dərəcədə tədrisinin həyata keçirilməsindən başqa, Xarici dillər fakültəsində, qeyri ixtisaslarla əlaqəli fakültələrdə Azərbaycan dili, nitq mədəniyyəti dərsləri də yüksək səviyyədə təşkil olunur. Bundan başqa, universitetin magistr səviyyəsində Azərbaycan dili fənni ilə bağlı pedaqoji və nəzəri istiqamətli bir sıra dərslər keçilir. Bu baxımdan dilin müxtəlif sahələri – orfoqrafiya və orfoepiya, fonetika, leksikologiya, morfologiya, sintaksis, ədəbi dil, poetik linqvistika, üslubiyyat üzrə biliklər verilir. İxtisaslara uyğun olaraq dərslərdə tanınmış professor və elm xadimləri iştirak edir. Həmçinin tələbələrin müasir şair və yazıçılar, elm xadimləri ilə mütəmadi olaraq görüşləri təşkil edilir ki, bunlar da tələbələrin öz ixtisaslarına daha dərindən yiyələnmələrinə şərait yaradır. Naxçıvan Dövlət Universitetində Ana dili günü ilə bağlı hər il universitetin Media mərkəzində verilişlər hazırlanır, eləcə də Azərbaycan dilinin təbliği ilə bağlı xarici tələbələr arasında yazı müsabiqələri, tədbirlər keçirilir. Azərbaycan dili və ədəbiyyat kafedrasının professor və müəllim heyətinin çap olunmuş 50-dən artıq kitabı, yüzlərlə elmi və metodik məqalələri fənnin daha dərindən öyrədilməsində mühüm əhəmiyyətə malikdir. AMEA Naxçıvan Bölməsində bölgənin onomastik vahidləri və dialekt və şivələri yüksək səviyyədə tədqiq olunmaqdadır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısı sayəsində bütün təhsil müəssisələrinin infrastrukturu yenilənmiş, maddi-tədris bazası möhkəmləndirilmiş, tədrisin yüksək səviyyədə təşkili üçün geniş imkanlar yaradılmışdır. Təhsil müəssisələrinin kitabxanaları da zəruri avadanlıqlarla təchiz olunmuş, fondu zənginləşdirilmiş, 3 milyona yaxın dərslik, 600 mindən çox bədii ədəbiyyatla təmin edilmişdir. Hər il muxtar respublika ümumtəhsil məktəblərində Azərbaycan dilinin inkişafı və qorunması ilə əlaqədar bir sıra tədbirlər həyata keçirilir. Azərbaycan dilinin tarixi barədə məktəblilərin əldə etdikləri bilikləri təkmilləşdirmək, onlarda doğma dilimizə sevgi və hörmət hissini daha da artırmaq, nitq mədəniyyətini formalaşdırmaq və istedadlı şagirdləri aşkara çıxarmaq məqsədilə dilimizin zənginliyi şagirdlərimizə təbliğ edilir, məktəblilərarası inşa yazı, şeir müsabiqələri, yarışlar keçirilir, maarifləndirici söhbətlər aparılır. Eləcə də mütailə aylığı, kitab müzakirəsi və oxucu konfransları, ədəbi-bədii gecələr, disputlar, bilik yarışları təşkil edilir.

*Ümummilli lider Heydər Əliyev demişdir:* ***"Azərbaycan xalqının dili onun milli varlığını müəyyən edən başlıca amillərdəndir".*** *Bu gün hər birimizdən Azərbaycan dilinə münasibətdə, dilimizin saflığının, milli varlığının qorunmasında vətəndaşlıq mövqeyi tələb olunur.*

**Əbülfəz QULİYEV**
**AMEA-nın müxbir üzvü**

*"Dil olduqca böyük təsir gücünə malik ünsiyyət vasitəsidir". Bu fikri AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev 1 avqust – Azərbaycan Əlifbası və Azərbaycan Dili Gününə həsr olunan tədbirdə söyləyib.*

## Azərbaycan Əlifbası və Azərbaycan Dili Günü qeyd olunub



Ana dilimizin keçdiyi inkişaf yolu, göstərilən dövlət qayğısından bəhs edən akademik dilimizin tarixin müxtəlif dövrlərində ərəb-fars dillərinin təsirinə məruz qalması, Sovet hakimiyyəti dövründə tariximizə, eləcə də dilimizə qarşı yeridilən yadlaşdırma siyasətindən söz açıb.

Natiq Azərbaycan dilinin qorunmasında, eləcə də inkişafında ulu öndər Heydər Əliyevin əvəzsiz rolunu vurğulayaraq bildirib ki, bu siyasətin layiqli davamçısı, ölkə başçısı cənab İlham Əliyevin həyata keçirdiyi ardıcıl tədbirlər, qəbul etdiyi qərarlar doğma ana dilinin bugünkü inkişaf səviyyəsinə çatmasında olduqca mühüm əhəmiyyətə malikdir.

Bölmənin İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Əbülfəz Quliyev tədbirdə "Dövlət dil siyasəti və muxtar respublikada tətbiqi məsələləri" haqqında çıxış edib.

Alim bildirib ki, dilimizin saflığı və yaşaması uğrunda mübarizə XIX əsrin əvvəllərindən XX əsrin ortalarına qədər davam etsə də, onun dövlət dili səviyyəsinə yüksəlməsi, qorunması və inkişafı ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır və bu siyasət bu gün də məqsədyönlü şəkildə davam etdirilir.

Alim muxtar respublikadakı ali təhsil müəssisələrində ana dilindən istifadə imkanlarını mükəmməl mənimsəmiş kadrların hazırlanmasına xüsusi diqqət yetirildiyini bildirib, dilimizin qorunub saxlanmasında elm adamlarının, xüsusilə gənc nəslin üzərinə düşən vəzifələrdən bəhs edib.

Tədbirdə, həmçinin İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun şöbə müdirləri, dosentlər Firudin Rzayev və Nuray Əliyevanın çıxışları dinlənilib. Çıxışlarda Azərbaycan dilinin xalq danışıq dili kimi keçdiyi zəngin inkişaf tarixinə nəzər salınıb, müxtəlif dövr səyyahlarının ana dilimiz haqqında fikirləri təhlil olunub, aparılan tədqiqatların uğurlu nəticələri diqqətə çatdırılıb.

***AMEA Naxçıvan Bölməsinin mətbuat xidməti***

* * *

Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə keçirilən, Yazıçılar Birliyinin üzvlərinin də iştirak etdiyi tədbiri giriş sözü ilə mədəniyyət nazirinin müavini Həsən Kərimov açaraq bildirib ki, dünyanın qədim və zəngin tarixə malik dillərindən olan Azərbaycan dili minilliklərin sərt sınaqlarından keçərək xalqımızın ən böyük milli dəyəri, dünya azərbaycanlılarının həmrəyliyinin sarsılmaz təməli, müstəqilliyimizin başlıca rəmzlərindən birinə çevrilmişdir.



Çıxışda ulu öndər tərəfindən ötən əsrin 70-ci illərindən başlayaraq Azərbaycan dilinin hərtərəfli inkişafı, onun rəsmi dövlət dili statusuna malik olması, beynəlxalq münasibətlər sisteminə yol tapması, zənginləşməsi və nüfuz qazanması istiqamətində görülən işlərdən, muxtar respublikamızda uğurla aparılan dövlət dil siyasətindən danışılıb.

Tədbirdə Naxçıvan Muxtar Respublikası Yazıçılar Birliyinin sədri, Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi Asim Əliyevin "Milli varlığımız – Ana dilimiz" və Cəlil Məmmədquluzadə adına Naxçıvan Muxtar Respublika Ədəbiyyat Muzeyinin direktoru Ələmzər İbrahimovanın "Azərbaycan dilinin təbliğində Cəlil Məmmədquluzadə adına Naxçıvan Muxtar Respublika Ədəbiyyat Muzeyinin rolu" mövzusunda çıxışları dinlənilib, Naxçıvan Muxtar Respublikası Yazıçılar Birliyinin üzvü olan şairlər ana dili ilə bağlı şeirlərini bədii qiraət ediblər. Sonda Ədəbiyyat muzeyinin ekspozisiyasına baxış olub.

***Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin mətbuat xidməti***

# Birlik və həmrəyliyimiz gələcək zəfərlərə səsləyir

## Qədim diyarımız “Azərbaycan-Türkiyə gənclərinin Zəfər Düşərgəsi” iştirakçılarının yaddaşında həmişəlik qalacaq



***İki dost və qardaş ölkənin Gənclər təşkilatlarının birgə dəstəyilə keçirilən və 200-dən çox gəncin iştirakçısı olan Zəfər Düşərgəsinin son günündə iştirakçılar günə xalqımızın mərdlik, yenilməzlik, mübarizlik rəmzi olan Əlincə qalasına ziyarətlə başlayıblar. Burada gənclərə abidənin tarixindən, xalqımızın öz azadlığı və istiqlaliyyəti uğrunda yadelli işğalçılara qarşı apardığı mübarizə zamanı qalanın əhəmiyyətindən danışılıb. Gənclərin üz tutduğu digər ziyarətgah isə Şəhidlər xiyabanı olub. Düşərgə iştirakçıları Şəhidlər xiyabanına gələrək Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarından keçmiş Vətən övladlarının xatirəsini yad edib, məzarları üzərinə güllər düzüblər. Günün ikinci yarısında isə onlar Naxçıvan Dövlət Universiteti ilə tanış olublar. Burada onlara Universitet şəhərciyi ilə bağlı ətraflı məlumat verilib.***

Gənclərin ziyarətləri zamanı biz də onlarla söhbət etmək imkanı əldə etdik. Həmsöhbət olduğumuz gənc Muş şəhərindən düşərgəyə qatılan ***Ramazan Çakıcı***dır. Türkiyə Gənclər Vəqfinin əməkdaşı olan 25 yaşlı gənc Naxçıvanla bağlı təəssüratlarını bizimlə paylaşarkən deyir ki, müxtəlif şəhərlərin tarixi, mədəniyyəti məni çox maraqlandırır. Lakin Naxçıvana olan marağım bir başqadır. Hər kəsə məlumdur ki, bura dünyanın qədim yaşayış məskənlərindən biridir. Əbəs yerə demirlər ki, Naxçıvanda hər daş altında bir tarix gizlənir. Qədim türk əcdadlarımız ilk dəfə bu torpaqlarda yaşayıblar. Türkiyədə Naxçıvana qarşı bu amilə görə böyük maraq var, bu diyar bizim üçün daha doğma və əzizdir. Arzu edirəm ki, bu diyar gündən-günə çiçəklənsin, onun mədəniyyətinin, təhsilinin, elminin yeni-yeni nailiyyətləri bizi daha da sevindirsin.

Deyirlər, mədəniyyət yoldan başlayır. Burada üz tutduğumuz hər yerdə yollar mərmər qədər hamardır. Getdiyimiz məkanlar o qədər təmizdir ki, inanın, bu təmizliyi başqa şəhərlərdə görmək mümkün deyil. Bu yurdun insanları da təmizürəkli, xoşniyyətli, istiqanlıdırlar. Bizi görən hər kəs evinə dəvət edir, mehriban söhbət edir, qucaq dolusu salamlar göndərir Türkiyədəkilərə. İnsanlarınız da diyarınız qədər gözəldir.



Digər iştirakçı isə İstanbuldan düşərgəyə qatılan ***Elif Habib***dir. İstanbul Gelişim Universitetində müəllim kimi fəaliyyət göstərən 26 yaşlı gənc deyir ki, bir çox böyük şəhərlərdə olmuşam, bu şəhərlərin yüksək müasirliyini, inkişafını Naxçıvanla müqayisə etsəm, yəqin ki, heç bir fərq tapa bilmərəm. Naxçıvanın iqlimi sərtdir, lakin buna baxmayaraq, yay fəsli nə qədər qızmar olursa-olsun, hər yer yaşıllıq, əlvan gül çiçək içərisindədir. Bütün bunlar insanların zəhmətkeşliyindən, gözəlliyə vurğunluğundan xəbər verir. Burada infrastruktur elə qurulub ki, heç bir nöqsan yoxsdur. Biz Duzdağ Fizioterapiya Mərkəzində və Əshabi-Kəhf ziyarətgah kompleksində olduq. Yerin altında belə gözəl müalicə mərkəzi yaratmaq və astma-bronxit xəstələrinin təbii yolla müalicəsinə nail olmaq, düşünürəm ki, bir möcüzədir. Əshabi-Kəhf ziyarətgah kompleksi əsl dini turizm mərkəzinə çevrilib. Bu xalqın dini inanc yerlərinə dövlətin hörmət və diqqətinin nişanəsidir. Görülən işlər milli-mənəvi dəyərlərin qorunub saxlanılması ilə yanaşı, əxlaqi keyfiyyətlərin də burada üstün tutulmasının göstəricisidir.

İstanbuldan Zəfər Düşərgəsinə qatılan ***İdris Ərgin***lə həmsöhbət oluruq. O deyir ki, iki ölkənin dövlət başçıları arasındakı dostluq və xalqlarımız arasındakı qardaşlığı gənclər olaraq davam etdirmək, azərbaycanlı gənclərlə daha yaxın əlaqələr qurmaq istəyirik. Artıq bir neçə gündür ki, buradayıq və çoxlu dostlar qazanmışıq. İnanırıq ki, bu dostluqlar istər siyasi, istər iqtisadi, istərsə də mənəvi baxımdan gələcəyin Türk dünyasının sağlam təməllər üzərində qurulmasının dəstəkçisi olacaq.

Naxçıvan çox gözəl bir şəhərdir. Memarlıq üslubu mənim çox xoşuma gəldi. İnsanları istiqanlı, kömək etməyi sevəndirlər. Əshabi-Kəhf ziyarətgahında insan o qədər saflaşır, paklaşır ki, sanki dünyaya yenidən gəlir.

Naxçıvan, mən deyərdim ki, mədəniyyət mirasıdır. Və mən bütün yaxınlarıma belə asanlıqla gedə biləcəyimiz bu yerləri gəlib görmələrini tövsiyə edirəm.

Növbəti müsahibimiz Konyadan düşərgəyə qatılan ***Melih Təyyip Orhan***dır. Melih deyir ki, 44 günlük müharibədən sonra bu düşərgənin təşkili çox faydalı oldu. Çünki bizlər də sizin kimi Qələbə gününü səbirsizliklə gözləyir, hər şəhid xəbəri aldıqca kədərlənirdik. Hətta Azərbaycanın haqq savaşı uğrunda lazım gələrsə, döyüşlərə qatılmağa da hazır idik. Haqq hər zaman qalib gəlir. Necə ki Azərbaycan Ordusu da qalibiyyətə nail oldu. Burada qazilərlə görüşümüz çox qürurverici idi.



Sonra biz Naxçıvanın, demək olar ki, bir çox yerlərini gəzdik. Maraqlı olan isə burada insanların bizə qarşı doğma münasibətidir. İnsanlar Türkiyədən gəldiyimizi eşitdikdə bizlərə sarılıb, sanki öz övladları kimi davranırlar. Məsələn, deyə bilərəm ki, hər hansı mağazaya yaxınlaşıb su almaq istədikdə bizdən pul almadılar. Mən bir çox ölkələri gəzmişəm. Amma burada qəribliyi heç hiss etmədim. Sanki öz Vətənimin başqa bir bölgəsi kimi bizə doğma, əziz gəldi bu diyar.

“Yunus Əmrə – 700” və “Nizami Gəncəvi – 880” tədbirlərində Türkiyə və Azərbaycanın qədim tarixi haqqında geniş söhbətlər olduqca maraqlı idi.

Gənclərin İnkişafı Karyera Mərkəzinin Bakı ofisinin əməkdaşı, Təlim-tədris üzrə aparıcı mütəxəssis ***Ləman Harunova*** da öz təəssüratlarını bizimlə bölüşür:

– Qardaş ölkə gəncləri ilə yanaşı, respublikamızın, demək olar ki, hər yerindən düşərgəyə qatılanlar var. Artıq dörd gündür ki, buradayıq. Muxtar respublikanın qədim tarixi, memarlıq abidələri türk gənclərin marağını daha çox çəkir.

Əshabi-Kəhf ziyarətgahında olduq, Ulu Tanrıya birlikdə dualar etdik, şəhidlərimizə rəhmət dilədik. Arzu edirəm ki, 30 ilə yaxın bir zamanda həsrətində olduğum ata-baba yurdumuzdan Tanrı igidlərimizin ayaqlarını bir daha kəsməsin. Qoy bayrağımız hər zaman yüksəklərdə dalğalansın ki, canları bahasına o bayrağı yüksəldənlər rahat uyusunlar. Və biz gənclər də bayrağımızın kölgəsində bütöv Azərbaycanın azad, xoşbəxt gələcəyinin bir parçası olmaqla, onun inkişafına töhfələrimizi verə bilək.

Müsahibimiz TÜQVA Ümumi Mərkəz Universitet Təşkilatının sədri ***Məhmət Fatih Dəmirci*** deyir ki, vüqarını ucu şişpapaqlı dağlarının qoynuna sığınıb 14 il Əmir Teymurun qara həsrətini qəlbində boğan Əlincə qalasından alan Naxçıvan basılmaz türk torpağıdır. Azərbaycan sevgisini məndə Tofiq Fikrətin “Millət şərqisi” şeiri yaradıb. Dahi şair “Zülmün topu var, gülləsi var, qəlpəsi varsa. Haqqın da bükülməz qolu, dönməz üzü vardır” deməklə, sanki bu yurdun insanlarının illərdir, öz doğma torpağı uğrunda apardığı haqq-ədalət savaşını duyaraq nəzmə çəkir. Bura gəldiyim gündən bəri ən çox Əshabi-Kəhf və Əlincə qalasına getmək üçün səbirsizlənirdim. Hər iki ünvan Naxçıvanın çoxəsrlik tarixindən xəbər verir bizlərə. Birnəfəsə zirvəsinə qalxdığımız Əlincə qalası haqqında məlumat aldıqca, dönüb türkün tarixinə baxdıqca daha da qürrələnir insan. Düşünürsən ki, belə bir köklü əcdadın davamçıları olmaq böyük bir xoşbəxtlikdir. Bir yanda qeyrət və əyilməzlik simvolu olan Əlincə qalası, digər yanda isə Uca Yaradanın bəndələrinə rəhmətinin nişanəsi olan Əshabi-Kəhf ziyarətgahı dayanır. Burada biz naxçıvanlı qardaşlarımızla söhbət edərkən iki dəyərli faktı da öyrəndik. Onlardan birincisi Fəzlullah Nəiminin də qəbrinin məhz Naxçıvanda, Xanəgah kəndində olması idi. Digər dəyərli fakt isə böyük şair Hüseyn Cavidin nəşinin dahi şəxsiyyət Heydər Əliyevin təşəbbüsü ilə Sibirdən Naxçıvana gətirilib burada dəfn edilməsi oldu. Həqiqətən bu türkün əcdadına, şairinə verdiyi dəyərin bariz nümunəsidir. Əfsuslar olsun ki, buradan ayrılırıq. Bu səfalı yurd xoş bir xatirə kimi yaddaşımızda həmişəlik qalacaq. Elə bir xatirə ki ölkəmizə qayıtdıqda hər kəsə bu diyarın sorağını çatdıracağıq. Bilsinlər ki, Zəngəzur və Dərələyəz dağlarının ardında, Xan Arazın axdığı yerdə möcüzələrlə dolu türk torpağı var.

Digər müsahibimiz ***Can Ceylan***la olan səmimi söhbətimizə Şəhidlər xiyabanında davam edirik. “Torpaqlarınızın azadlığı” uğrunda canından keçən şəhidlərimizin bu gün ruhu şaddır, – deyən həmsöhbətimiz qeyd edir ki, II Qarabağ müharibəsinin bütün ağrı-acılarını ruhumuzla, qəlbimizlə hiss edirdik. Azərbaycan xalqı 44 günlük haqq savaşından alnıaçıq, üzüağ bir şəkildə çıxaraq əlçatmaz qəhrəmanlıq salnaməsi, ünyetməz şəraf dastanı yazdı. Elə bir dastan ki bu gün burada iştirak edən bütün gənclər həmin zəfərin səbəbkarlarına – şəhidlərə borcludur. Səsimi dayandığımız bu müqəddəs məkandan – Şəhidlər xiyabanından Vətənin azadlığı uğrunda canını qurban verən qardaşlarıma çatdırıram. Bilirəm, eşidirlər səsimi, görürlər, duyurlar bizi. Çünki şəhidlər ölməz. Qoy bilsinlər ki, türkün tökülən qanı bihudə getməz. Qoy bilsinlər ki, Bayraqları bayraq edən üstündəki qandır. Torpaq, uğrunda ölən varsa, Vətəndir. Burada olduğum müddətdə böyüklərimdən eşitdiyim bir hikmətli sözün həqiqətinə şahid oldum. Deyirlər ki, bir xalqın yaşadığı torpaqda şəhidi yoxdursa, həmin xalq o torpaqda qəribdir. Bu, həqiqətən də, belədir. Tariximizi geri vərəqlədikcə şəhidlərimizin gələcəyimizə ünvanlanan haqq harayını eşidirik. Nə qədər ki canımızda can var, bütün həyatımız boyu onlara borclu olacağıq, unutmayacağıq. Başları üzərində dalğalanan ay-ulduzlu bayraq naminə canını qurban edən şəhidlərin ruhları şad, məzarları nurla dolu olsun.

“Azərbaycan-Türkiyə gənclərinin Zəfər Düşərgəsi” “Duzdağ” hoteldə keçirilən bağlanış mərasimi ilə yekunlaşdı. Əvvəlcə düşərgə iştirakçıları Azərbaycan və Türkiyə respublikalarının Dövlət himnlərini oxuyub, sonra düşərgə ilə bağlı təəssüratlarını bölüşdülər.

Mərasimdə Zəfər Düşərgəsi çərçivəsində keçirilən tədbirlərlə bağlı, eləcə də çəkilən foto və videolardan ibarət videoçarxlar nümayiş olundu. Naxçıvan Muxtar Respublikası Gənclər Fondunun icraçı direktoru, Azərbaycan Respublikası Milli Məclisinin deputatı Cəbi Quliyev, Azərbaycan Respublikası Gənclər Fondunun icraçı direktorunun müavini Qədir Xəlilov və Türkiyə Gənclik Vəqfinin Beynəlxalq Əlaqələr koordinatoru Esra Karabal Arda çıxış etdilər. Çıxışlarda iki qardaş ölkənin tarixi dostluğundan, ötən il 44 günlük Vətən müharibəsində qazanılan Böyük Qələbədən, Zəfər Düşərgəsi çərçivəsində keçirilən tədbirlərin əhəmiyyətindən söhbət açıldı, gələcəkdə belə layihələrin daha sıxsıx reallaşdırılacağı diqqətə çatdırıldı, gənclərə gələcək fəaliyyətlərində uğurlar arzuladılar.




Sonra Naxçıvan Muxtar Respublikası Gənclər Fondu ilə Türkiyə Gənclik Vəqfi arasında qarşılıqlı xatirə hədiyyələrinin təqdimatı oldu, futbol oyununda qələbə qazanan komandaya kubok, gənclərə hədiyyələr və sertifikatlar verildi, xatirə fotosu çəkildi.

**Nail ƏSGƏROV**
**Məcid RƏŞADƏTOĞLU**
**Gülcamal TAHİROVA**
**Telli MƏMMƏDOVA**

# Hərbi xidmətə növbəti çağırış başa çatıb

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2021-ci il iyunun 17-də imzaladığı Sərəncama uyğun olaraq Azərbaycanda həqiqi hərbi xidmətə növbəti çağırış başa çatıb.*

Naxçıvan Muxtar Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti tərəfindən Sərəncamın icrası təmin edilib və iyul ayı ərzində Azərbaycan Silahlı Qüvvələrinin çağırışçılarla komplektləşdirilməsi müvəffəqiyyətlə yekunlaşdırılıb.

İyulun 1-dən başlayan çağırış müddətində müvafiq icra hakimiyyəti orqanlarının nümayəndələri ilə bərabər, həkim mütəxəssislərin də iştirak etdiyi komissiyalarda çağırışçıların tibbi müayinədən keçməsi prosesinin şəffaflığına dəqiqliklə yanaşan, xidmətin şəhər və rayon idarələrində müəyyən qrafikdə fəaliyyət göstərən komissiyanın tələblərinə cavab verən, sağlamlıq vəziyyətinə görə hərbi xidmətə yararlı olan, çağırışa möhlət hüququ olmayan və ya çağırışdan azad edilməmiş Naxçıvan Muxtar Respublikasında yaşayan vətəndaşlar komissiyanın qərarı ilə Vətən qarşısında müqəddəs borcunu ödəmək haqqını əldə edib.



Qeyd edək ki, Sərəncama əsasən 2003-cü ildə doğulmuş və çağırış günündək (həmin gün də daxil olmaqla) 18 yaşı tamam olmuş, habelə 1986-2002-ci illərdə doğulmuş, yaşı 35-dək olan, Azərbaycan Respublikasının Silahlı Qüvvələrində müddətli həqiqi hərbi xidmət keçməmiş, müddətli həqiqi hərbi xidmətə çağırışdan möhlət hüququ olmayan və ya müddətli həqiqi hərbi xidmətə çağırışdan azad edilməmiş Azərbaycan Respublikası vətəndaşları 2021-ci il iyulun 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə göndərilib.

Vətənə borcunu ödəmək vaxtı çatan, şanlı ordumuzun sıralarına qoşulub xidmətə başlamağı həyəcanla gözləyən çağırışçılar da həqiqi hərbi xidmətə mütəşəkkilliklə, böyük ruh yüksəkliyi ilə yola düşdülər.

**Şükufə HƏSƏNOVA**
***Naxçıvan Muxtar Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin mətbuat və ictimaiyyətlə əlaqələr üzrə baş məsləhətçisi***

# Kino sənəti tariximizi yaşadan salnamədir

*Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin “Azərbaycan Kinosu Gününün təsis edilməsi haqqında” 2000-ci il 18 dekabr tarixli Sərəncamına əsasən hər il avqustun 2-si ölkəmizdə “Azərbaycan Kinosu Günü” kimi qeyd olunur.*

Müasir dövrümüzün ən maraqlı və ən populyar incəsənət növü hesab edilən kino yarandığı gündən qısa müddət sonra həyatımıza dərindən nüfuz etmiş və onun ayrılmaz tərkib hissəsinə çevrilmişdir. Kino tamaşaçını məkan və zamandan keçirərək gah gələcəyə, gah da keçmişə aparır. Kinonun vəzifəsi yalnız əyləncədən ibarət deyil, o, hər şeydən əvvəl, xalqa xidmət etməlidir, buna görə kino insanların mənəviyyatını zənginləşdirməyə yönəldilməlidir.

Bu il milli kinomuzun yaranmasından 123 il ötür. Azərbaycanda kino sənətinin inkişafında dahi bəstəkar Üzeyir Hacıbəylinin həyat və yaradıcılığının böyük rolu olmuşdur. Onun dəfələrlə ekranlaşdırılmış əsərləri milli kino sənətimizə böyük uğur qazandırmışdır. Dünya kinosunun tarixi ilə üst-üstə düşən Azərbaycan kinosu ilk vaxtlar səssiz və ağ-qara, sonradan isə rəngli və səsli formatda olmuşdur. XIX əsrdən etibarən cərəyan edən maarifçilik hərəkatının, dünyəvi teatrın və mətbuatın inkişafı kinonun yaranmasına təkan vermişdir. 1898-ci ildən başlayaraq Azərbaycanda “Şəhər bağında xalq gəzintisi”, “Bazar küçəsi sübh çağı”, “Qatarın dəmiryol vağzalına daxil olması”, “Balaxanıda neft fontanı”, “Qafqaz rəqsi”, “Bibiheybətdə neft fontanı yanğını” və başqa filmlər çəkilmişdir.

1945-ci ildə yaradılan və ekran sənətimizin qızıl fonduna daxil olan “Arşın mal alan” filmi kinomuzdakı yeni keyfiyyət dəyişikliyinin xəbərçisi olmuşdur. Bu günə qədər Azərbaycan milli kinosunun ən uğurlu və parlaq nümunələri sırasında dayanan “Arşın mal alan” indiyədək 136 ölkədə nümayiş etdirilmiş və 86 dilə tərcümə olunaraq kinomuza şöhrət gətirmişdir. 1956-cı ildə kinomuzda daha bir keyfiyyət dəyişikliyi baş verir. Bu gün də sevilə-sevilə baxılan ilk rəngli film – “O olmasın, bu olsun” bədii filmi ekranlaşdırılır. Kinokomediya 40-dan çox ölkədə nümayiş olunmuş və Azərbaycan kinosunun şöhrətini artırmışdır.

***“Azərbaycan xalqının bir çox nəsilləri kino sənəti ilə tərbiyələnib, kinonun təsiri altında formalaşıb, inkişaf edib və mədəniyyətə qovuşubdur...Xalqımızın inkişaf yolunda Azərbaycan kinosunun xidmətləri əvəzsizdir”***, – deyən incəsənətimizin hamisi ümummilli liderimiz Heydər Əliyevin ölkəmizə rəhbərliyi dövründə milli kinonun inkişafı üçün mühüm tədbirlər həyata keçirilmişdir. Bu illərdə milli kino sənətimiz yeni inkişaf mərhələsinə qədəm qoymuş, kino sahəsində çalışan sənətkarlar diqqət və qayğı ilə əhatə olunmuşdur.

1970-1980-ci illərdə Azərbaycan kinosu, sözün əsl mənasında, öz intibah dövrünü yaşamışdır. Həmin illərdə Azərbaycanda 110 bədii, 500 sənədli və elmi-kütləvi, eləcə də 44 cizgi filmi istehsal olunmuşdur. “Bir cənub şəhərində”, “Dəli Kür”, “Yeddi oğul istərəm”, “Axırıncı aşırım”, “Nəsimi”, “Dədə- Qorqud”,



“Babək” və başqa bədii filmlərimiz bu illərdə çəkilmişdir. Bu filmlərimizi fərqləndirən əsas cəhətlərdən biri də xalqımızın həyatına, başlıcası isə çoxəsrlik tariximizə, adət-ənənələrimizə, milli dəyərlərimizə daha dərindən nüfuz etməsində idi. Sovet imperiyası dövründə nə qədər çətin olsa da, ulu öndərin təşəbbüsü ilə milli kinomuzun qızıl fondu sayılan belə sənət nümunələri yaradılmışdır.

Müstəqillik illərində milli kinomuzun inkişafına xüsusi diqqət yetirilməsi də məhz ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Ötən əsrin 90-cı illərində məhv olmaq təhlükəsi ilə üzləşən incəsənətin bu vacib sahəsi də dahi rəhbər Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə yeni inkişaf mərhələsinə qədəm qoymuşdur. 1998-ci il iyulun 3-də “Kinematoqrafiya haqqında”Azərbaycan Respublikasının Qanunu qəbul edilmiş və bununla da dövlət kinematoqrafiyasının hüquqi bazası yaradılmışdır. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1993-cü il 22 dekabr tarixli Sərəncamına əsasən Azərbaycan Dövlət Film Fondu yaradılmış və filmlərin qorunması təmin edilmişdir.

Bu gün ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən milli kino sənətinin inkişafı üçün mühüm işlər həyata keçirilir. Ölkə başçısının 2008-ci il 4 avqust tarixli Sərəncamı ilə təsdiq etdiyi “Azərbaycan kinosunun 2008-2018-ci illər üçün inkişafına dair Dövlət Proqramı” buna bariz nümunədir. Prezident cənab İlham Əliyevin “Azərbaycan kinosunun 120 illiyinin qeyd edilməsi haqqında” 2018-ci il 31 yanvar tarixli Sərəncamı isə ekran sənətimizə diqqət və qayğının daha bir ifadəsidir.

Son illər ölkəmizdə kinostudiyaların maddi-texniki bazası gücləndirilmiş, yeni filmlər çəkilmiş, kino sənətimiz inkişafın müasir mərhələsinə qədəm qoymuşdur. Belə ki, filmlərimiz 50-dən çox beynəlxalq film festivalında iştirak edərək Azərbaycan gerçəkliklərini dünyanın kino auditoriyasına çatdırmış və nüfuzlu mükafatlara layiq görülmüşdür. “Nabat”, “Çölçü”, “Buta”, “Axınla aşağı”, “Axırıncı dayanacaq”, “Qırmızı bağ”, “Dəyərli adlar”, “Yarımçıq xatirələr”, “Qala”, “40-cı qapı”, “Qisas almadan ölmə”, “Sahə”, “Aktrisa”, “Xeyirlə Şərin rəqsi”, “Dərvişin qeydləri” və başqa filmlərimiz müstəqillik illərində Azərbaycan kinosunun mövzu və sənət axtarışlarından xəbər verir.

Azərbaycan kino sənətinin inkişafında Naxçıvan torpağının yetirdiyi sənətkarlar Qəmər Salamzadə, Rza Təhmasib, Həbib İsmayılov, Məmmədhüseyn Təhmasib, Şamil Mahmudbəyov, Ramiz Mirişli, Elxan Qasımov və başqalarının dəyərli xidmətləri olmuşdur. Unudulmaz filmlərimizdən olan “Nəsimi”, “Dədə Qorqud”, “Babək”, “Əzablı yollar”, “Gümüşgöl əfsanəsi”, “Doğma sahillər” və başqa ekran əsərlərinin müəyyən hissələri və natura çəkilişləri Naxçıvan Muxtar Respublikasında aparılmışdır. Bu gün də muxtar respublikada kino sənətinin inkişafına böyük diqqət və qayğı göstərilir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin qayğısı ilə Naxçıvan şəhərində “Gənclik” Mərkəzi yaradılmış, Şərurda “Bahar”, Şahbuzda “Araz” kinoteatrları yenidən qurulmuş, Ordubad, Culfa, Babək, Kəngərli, Sədərək və Şahbuz Rayon Mədəniyyət sarayları müasir videoproyektorlarla, lazımi texniki avadanlıqlarla təchiz olunmuşdur. Muxtar respublikamızda Dövlət Film Fondunun fəaliyyət göstərməsi də bu sahəyə olan qayğının daha bir nümunəsidir. Fondda 5000-ə yaxın film saxlanılır. Azərbaycan filmləri ilə yanaşı, burada müxtəlif ölkələrdə istehsal olunmuş bədii, sənədli filmlər, cizgi filmləri, qısametrajlı, elmi-kütləvi, Azərbaycan dilinə dublyaj edilmiş filmlər də mühafizə olunur. Eyni zamanda fondda 100-dən çox Azərbaycan filminin ssenarisi ilə tanış olmaq imkanı da mövcuddur. Naxçıvan Dövlət Film Fondu tərəfindən filmlərin qorunub saxlanılması, təbliği, fondun arxivinin yeni filmlərlə zənginləşdirilməsi istiqamətində mütəmadi olaraq işlər görülür. Nazirliyin sistemində fəaliyyət göstərən kinoteatrlar və mədəniyyət saraylarına fondun arxivində olan filmlərin nüsxələrinin verilməsi təmin edilmiş, Naxçıvan Dövlət Film Fondunda olmayan bədii və sənədli filmlər əldə edilərək fondun arxivi zənginləşdirilmişdir. Filmlərin nömrələnməsi, pasportlarının yenilənməsi işləri də diqqət mərkəzində saxlanılır.



Ötən dövrdə muxtar respublikanın tarixi, maddi mədəniyyət abidələri, zəngin ədəbiyyatı, incəsənəti və musiqi mədəniyyəti, təbiəti, iqlimi, təbii sərvətlərinin zənginliyi, təsərrüfat həyatı, ordu quruculuğu ilə bağlı “Naxçıvan Muxtar Respublikası Televiziya və Radio Verilişləri” Qapalı Səhmdar Cəmiyyətində onlarla televiziya filmi hazırlanmış və yüzlərlə sənədli film dublyaj olunmuşdur.

Azərbaycan kinosu zamanın böyük sınaqlarından şərəflə çıxaraq xalqa xidmət yolunu tutmuş, dünya kino mədəniyyətinə layiqli töhfələr vermişdir. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin dediyi kimi: ***“Mən əminəm ki, Azərbaycan kinematoqrafiyasının sabahı daha uğurlu və parlaq olacaq, milli ənənələrimizdən bəhrələnən kino sənətimiz dünya mədəniyyətində özünə layiqli yer tutacaqdır”.***

**Naxçıvan Muxtar Respublikası**
**Mədəniyyət Nazirliyinin mətbuat xidməti**

# Gurbulaq əfsanəsi

## *Yurd sevgisi*



Kimsənin bilmədiyi milyon illər əvvəl bir bulaq qaynayırdı. Uca Yaradanın bu torpaqlara bəxş etdiyi ən gözəl sərvət olan göz yaşı kimi dumduru suyun dünyaya göz açdığı bu bulaq indiki kimi o vaxtlar da, sanki arxasındakı ləşkər dağların əzəməti qədər güclüydü. Bulaq o zamandan bu günədək özünün gur suyu ilə heç yorulub tükənmədən Xan Araza doğru tələsib, axırda yorğun düşsə də, sonda məcrasına sığınmış minlərlə insanın dilində yaşayan bir əfsanəyə döndü: Kükü dağının sərt sıldırımlı qayalarından ələnən şəlalənin gözəlliyi ilə hamını qısqandıracaq Gurbulaq əfsanəsinə!

Təmiz, saf suya olan ehtiyac ən qədim insanın ilk mədəni tələbatıdır. Su kimi pak həyat yaşayıb, su qədər də uzunömürlü olmaq həmişə insanın xəyallarında yaşayıb, yaşlandıqca da çılğın bulaq sevgisi onun ürəyinə hakim olub. Bu mənada, aynatək təmiz bir bulaq gözündən, sanki anasının baxışlarını tapıb, həzin şırıltısından onun laylay nəğməsini dinləyə bilənlər dünyanın ən xoşbəxtləridir. Çünki bulaq ölümdən sonrakı həyatı bu işıqlı dünyada yenidən görə biləcəyimiz tək təbiət möcüzəsidir.

*Su həyatdır.* Gurbulağın canlı həyat hekayəsi onunla birgə yaşamış on minlərlə insanın su yaddaşından süzülüb gələn ən gözəl xatirələrlə doludur. Qızmar Günəşin qasıb-qovurduğu ən quraq yay günlərində heç gözünü qırpmadan hamıya istədiyi qədər su yetişdirən Gurbulaq çox səxavətlidir. İlıq bahar Günəşinin rahiyəsində süslənmiş al çiçəklərin eşqinə alışıb-yanan arıların balı qədər şirin, minnətsizdir onun səxavəti. Papaqdaşdan, Qiblə bulağınadək hər kəklikotunun, hər xınalı kəkliyin canında bir Gurbulaq damlası axır. Onun məcrasında su bol, yaşamağa yer də yetərincədir. Əli iş tutan hər kəs üçün Gurbulaq həm də iş-güc, yamyaşıl çəmənlik, geniş bağ-bağça deməkdir. Adı dillər əzbəri olmuş Kükü alması da öz şöhrətini Gurbulağın şirin suyuna borcludur. Beləcə, bu torpaqda min illər əvvəlki kimi yaşayan kim varsa, azuqəsini tapmaq üçün öncə Allaha təvəkkül edib, sonra da hər sübhdən Gurbulağın halal xeyir-bərəkətinə doğru yola çıxır.

*Gurbulaq gözəl bir nəğmə, nəğməkar bir şəlalədir.* Gurbulağın axar suyu, gözəl şəlaləsinin nəğmə sözcükləri onunla birgə yaşayanlar üçün ən kövrək Vətən bəstəsidir. Yorulmaq bilmədən daşlara çırpılan ağappaq su damlalarının təkrarsız səsi həzin notlarla bütünləşdikdə öz Leylasına sevgisindən danışan məhəbbət aşiqlərinin ürəyinə məlhəm kimi yayılır, əsl can dərmanına dönür.

*Gurbulaq yurd sevgisidir.* Bulağın qaynadığı Dərələyəz dağları Naxçıvanın ən ucqar yurd yerləri olsa da, burada məskunlaşmış insanlar heç bir zaman bu torpaqlardan köç etməyi ağıllarına belə, gətirməmiş, əksinə, nəsildən-nəslə keçən mətin yaşam hekayələri ilə öz övladlarına od-ocağa sahib çıxmağı, hər bulaq başında bir yuva qurmağı vəsiyyət etmişlər. Kükü dağında isə Gurbulağın qol-qanadı olan irili-xırdalı yüzlərlə belə şirinsulu bulaqlar qaynayır. Yüzillər keçəndən sonra ata-babaların qurub-yaratmaq istəyi xəyallardan gerçəyə döndükcə, beləcə, Gurbulaq yurdunda yaşayanların su sevdası da sonsuz sədaqətlə möhkəmlənib, ailə şəcərəsi kimi doğmalaşıb.

*Gurbulaq bu yerlərin qonaq-qarası, ecazkar turizm resursudur.* Yayın istisində bulağın sərin nəvazişindən məst olub, əldəyməmiş təbiət gözəli ilə baş-başa qalmaq istəyənlər üçün Gurbulaq bu dünyanın ən xudmani yeridir. Onun sorağına gələnlər yaxşı bilirlər ki, öz gözəlliyini kimsə ilə bölüşməyən Gurbulaq həm də rekreantların və ya sadəcə, ekoturistlərin doyunca paylaşa biləcəyi zəngin bir təəssürat mənbəyidir. Bu suyun elə bir cazibə gücü var ki, bir gün buraya yolu düşənlər sabah dünyanın o başında olsalar da, hökmən yenidən qayıdıb gələcəklər.

*Gurbulaq əfsanəsini bir daha dinləmək üçün!*

✍ **Əli CABBAROV**

### *İtmişdir*

Orucov Oruc Məmməd oğlunun adına olan sürücülük vəsiqəsi itdiyindən etibarsız sayılır.

***

Naxçıvan şəhəri, Nizami küçəsi, bina 59, mənzil 4-də yaşayan Kəngərli Nuridə Məhərrəm qızının adına olan 9249 inventar nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.

***

Əhmədov Əli Yediyar oğlunun adına olan sürücülük vəsiqəsi itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor:
MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000,
Naxçıvan şəhəri, “Təbriz” küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir
və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Həsənov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və
Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1500. Sifariş № 604